# Olimpiya dünyası

www.olimpiyadunyası.com
www.olimpnews.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 18 (1520), 14 - 20 iyun 2022-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*





## MOK rəsmiləri AOK-un 51-ci Baş Assambleyasının iclasında iştirak ediblər

İyunun 10-11-də Makedoniyanın Skopye şəhərində Avropa Olimpiya Komitəsinin 51-ci Baş Assambleyasının iclası keçirilib. Şimal Makedoniya MOK-un prezidenti Daniel Dimeski, AOK-un prezidenti Spiros Kapralos, BOK-un prezidenti Tomas Baxın iştirak etdiyi iclasda Paris-2024 Yay Olimpiya Oyunları, Milano Kartina-2026 Qış Olimpiya Oyunları müzakirə olunub. İclasda həmçinin 3-cü Avropa Oyunları - Krakov və Malopolska-2023 Təşkilat Komitəsinin və Pekin-2022 üzrə BOK Təşkilat Komitəsinin hesabatları dinlənilib.

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Baş katib Azər Əliyev və MOK Beynəlxalq əlaqələr idarəsinin müdiri Anar Bağırov da AOK-un 51-ci Baş Assambleyasının iclasında iştirak ediblər.

Baş Assambleyanın iştirakçılarına AOK prezidenti Spiros Kapralos, AOK Baş katibi Rafael Paqnozi tərəfindən hesabatlar da təqdim olunub. AOK-un 2021-ci il maliyyə hesabatı, 2023-cü ilin büdcəsi, xarici auditorların təyinatı və AOK komissiyalarının hesabatları da iclasın gündəliyinə salınıb.

## Maks Ferstappen Formula 1 Azərbaycan Qran-Prisinin qalibi oldu




İyunun 12-də Bakıda Formula 1 Azərbaycan Qran-Prisi "Red Bull Racing" komandasının niderlandlı pilotu Maks Ferstappenin (1:34:05.941) qələbəsi ilə yekunlaşdı.

Fəxri kürsünün ikinci pilləsində onun komanda yoldaşı meksikalı Serxio Peres (+20.823s) yer aldı. "Mersedes" komandasının britaniyalı sürücüsü Corc Rassel isə yarışı üçüncü pillədə başa vurdu - (+45.995s). Onun komanda yoldaşı Luis Hamilton (+71.679s) dördüncü yerlə kifayətləndi. İlk beşliyi "Alphatauri" komandasının fransalı sürücüsü Pyer Qasli (+77.299s) tamamladı. İlk beşlikdə qərarlaşan pilotlar aktivlərinə müvafiq olaraq, 25, 19, 15, 12 və 10 xal yazdırdılar.

Bununla da mövsümdə beşinci qələbəsini qazanan M.Ferstappen xal ehtiyatını 150-yə çatdıraraq pilotların reytinq siyahısında mövqeyini daha da yaxınlaşdırdı.

Bakıda ikinci, tarixində isə iyirminci qələbəsini qazanan "Red Bull Racing" komandası 260 xalla builki dünya çempionatında liderliyini gücləndirdi. "Mersedes" komandasının britaniyalı pilotu Luis Hamilton fəxri kürsüdə yer ala bilməsə də, "günün sürücüsü" nominasiyasının qalib oldu.

*(ardı 3-cü səhifədə)*



## *Milli Olimpiya Akademiyasının iclası olub*

Milli Olimpiya Komitəsinin (MOK) inzibati binasında Milli Olimpiya Akademiyasının iclası keçirilib. İclasda Milli Olimpiya Akademiyasının idarə və işçi heyətinin üzvləri təyin olunub. Ağacan Abiyev Milli Olimpiya Akademiyasının prezidenti, Fərid Mansurov vitse-prezidenti, Camaləddin Rəhmanov isə elmi katibi təyin olunub.

## Fərid Qayıbov Voleybol Mərkəzi ilə tanış olub

***Azərbaycan gənclər və idman naziri Fərid Qayıbov Azərbaycan Voleybol Mərkəzi ilə tanış olub. "Olimpiya dünyası" qəzeti xəbər verir ki, görüşdə nazir müavini Mariana Vasileva, nazirliyin sektor müdiri Elmir Mehdiyev, Azərbaycan Voleybol Federasiyasının (AVF) prezidenti Cavid Qurbanov, AVF-nin vitse-prezidenti Faiq Qarayev və baş katibi Fərid Xəlilov iştirak ediblər.***



Nazirə idman qurğusu barədə məlumat verilib və bildirilib ki, bu arena ölkə voleybolunun inkişafı üçün çox mühüm əhəmiyyətə malikdir. Qeyd olunub ki, burada istənilən səviyyəli oyunların keçirilməsi üçün hər cür şərait yaradılıb.

Görüşdə ölkə voleybolunun inkişafı istiqamətində görülməli olan işlər müzakirə edilib.

## Mini futbol üzrə Azərbaycan millisi tarixində ilk dəfə Avropa çempionu tituluna yiyələndi



İyunun 11-də mini futbol üzrə Azərbaycan yığma komandası tarixində ilk dəfə Avropa çempionu adını qazanıb.

Yığmamız Slovakiyanın Koşitse şəhərində keçirilən çempionatın finalında qitə birinciliklərinin ən titullu komandasını - altıqat Avropa çempionu Rumıniyanı 1:0 hesabı ilə məğlub edərək qızıl medala sahib olub. Oyunda yeganə qolu qarşılaşmanın 25-ci dəqiqəsində Seymur Məmmədov vurub.

Bürünc medallara Qazaxıstan yığmasını 4:1 hesabı ilə məğlub edən Bolqarıstan komandası layiq görülüb.

Sonra çempion Azərbaycan millisi, medallara layiq görülən digər komandaların üzvləri və fərqlənən futbolçular mükafatlandırılıblar.

*(ardı 7-ci səhifədə)*

## *A n o n s*


### Madrid sınağı 2 medalla yadda qaldı

Səh. 4



### *Böyük təcrübənin xırda nüansları*

Səh. 6

### "Şuşa İli"nə həsr olunmuş birincilik keçirilib

Səh. 7

# Azərbaycan nümayəndə heyəti Assambleyada iştirak edib

Belçikanın paytaxtı Brüsseldə Avropa Ədalətli Oyunlar Hərəkatının (AƏOH) Baş Assambleyası keçirilib. Tədbirdə ölkəmizi Azərbaycan nümayəndə heyətinin tərkibində Azərbaycan Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyasının sədri (AzƏOK), AƏOH-un İcraiyyə Komitəsinin üzvü Xəzər İsayev və AzƏOK-un məsul katibi Aysel Sultanova təmsil ediblər.

Assambleyada Avropa Parlamentinin üzvü Mark Tarabella, Belçikanın gənclər, idman və inkişaf naziri Valeri Qlatınyi, Belçika Olimpiya Komitəsinin prezidenti Jan Mişel, Belçika Pentatlon Federasiyasının prezidenti Evelin Hyutebruk və digər rəsmi qonaqlar iştirak ediblər.




Tədbirin açılışında çıxış edən AƏOH-un yeni prezidenti Filip Üzyo qurumun mənzil qərargahının Avstriyadan Belçikaya köçürüldüyünü və bunun strateji əhəmiyyət kəsb etdiyini vurğulayıb. O qeyd edib ki, Hərəkatın yeni rəhbərliyi və üzvlərinin birgə fəaliyyəti nəticəsində müəyyənləşdirilmiş strategiyaya əsasən, qurum bundan sonra da ədalətli oyun və Olimpiya dəyərlərini qarşılıqlı şəkildə təbliğ edəcək.

Sonra Avropa Olimpiya Komitəsinin Prezidenti Spiros Kapralosun videomüraciəti səsləndirilib.

Tədbirdə AƏOH-un nəzdində fəaliyyət göstərən müxtəlif komissiyalara üzvlərin namizədlikləri təsdiqlənib. AzƏOK-un məsul katibi Aysel Sultanova AƏOH-un Kommunikasiya Komissiyasının üzvü seçilib.

Qeyd edək ki, Avropa Ədalətli Oyunlar Hərəkatı 28 ildir fəaliyyət göstərir. Azərbaycan Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyası 1998-ci ildən bu qurumun fəal üzvü olaraq uğurlu əməkdaşlığını davam etdirir.

## *Azərbaycan Gimnastika Federasiyası narkomaniyaya qarşı kampaniyaya başlayıb*

Azərbaycan Gimnastika Federasiyası (AGF) Azərbaycan Cüdo Federasiyasının (ACF) 26 iyun Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü münasibətilə başlatdığı kampaniyaya qoşularaq, "İdmanı seç, sağlam qal!" və "Narkotikə yox!" mövzusunda ərsəyə gətirdiyi videoçarxı ictimaiyyətə təqdim edib.

Azərbaycan Gimnastika Federasiyasının mətbuat xidmətindən verilən məlumata görə, kampaniyanın əsas məqsədi yeniyetmə və gəncləri sağlam həyat tərzi seçməyə, asudə vaxtını səmərəli keçirməyə və zərərli vərdişlərdən uzaq olmağa təşviq etməkdir.

Bunu günün önəmini vurğulamaq üçün AGF estafeti Atçılıq, Atıcılıq, Badminton Federasiyalarına və AFFA-ya ötürür.

## Qarabağ atları V Etnospor Mədəniyyət Festivalında

İstanbulda V Etnospor Mədəniyyət Festivalının açılışı olub. Azərbaycan Respublikası Atçılıq Federasiyasından verilən məlumata görə, Türkiyə, Azərbaycan, Qazaxıstan, İordaniya, Yaponiya, Paraqvay, Mərakeş, Moldova, Qırğızıstan, Tacikistan, Qambiya, Meksika, Liviya və digər ölkələrin təmsilçilərinin qatıldıqları festivalın açılış mərasimində ölkəmizi Azərbaycan Respublikasının Atçılıq Federasiyasının təşkilatçılığı ilə Dövlət Sərhəd Xidmətinin 60 nəfərlik heyətdən ibarət süvarilər dəstəsi və rəqs ansamblı təmsil edib.

Festival çərçivəsində Dünya Etnospor Konfederasiyasının prezidenti Bilal Ərdoğan və Azərbaycan Respublikası Atçılıq Federasiyasının prezidenti Elçin Quliyev arasında görüş keçirilib, bu mədəniyyət festivalına dəvətə görə Türkiyə tərəfinə minnətdarlıq bildirilib, tanınmış heykəltəraşımız Hamlet Musayevin "Qarabağ ailəsi" adlı əsəri hədiyyə olunub.

Bilal Ərdoğan Azərbaycan nümayəndə heyətinin festivala qatılmasından, təmsilçilərimizin bu tədbirlərdə artıq ənənəyə çevrilən möhtəşəm çıxışlarından məmnunluğunu ifadə edib. O, Qarabağ atlarının növbəti dəfə bütün izləyiciləri valeh etdiyini diqqətə çatdırıb.

Görüşdə cari ilin sentyabrında Etnospor Mədəniyyət Festivalının Azərbaycanda keçirilməsi məsələsi müzakirə olunub.

Azərbaycanın qədim tarixinin, zəngin mədəniyyətinin mühüm hissəsi olmaqla maddi-mədəni sərvətimiz sayılan, ecazkar gözəlliyi və valehedici xüsusiyyətləri ilə seçilən Qarabağ atları üzərində təmsilçilərimizin festivalın açılış günündə nümayiş etdirdikləri xüsusi şou-kompozisiya tamaşaçılar tərəfindən böyük heyranlıqla və hərarətli alqışlarla qarşılanıb.

Festival çərçivəsində oxatma, yağlı güləş, at yarışları da daxil olmaqla 12 ənənəvi idman növü üzrə yarışlar keçirilir. Dörd gün davam edəcək bu tədbirlərdə bir milyondan artıq insanın iştirakı gözlənilir.

İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik
olimpiyadunyasi.com onlayn qəzetindən oxuyun




## *FİA ilə Azərbaycan Avtomobil Federasiyası arasında əməkdaşlıq məsələləri müzakirə olunub*



Formula 1 üzrə dünya çempionatının səkkizinci mərhələsi - Azərbaycan Qran-Prisi çərçivəsində ölkəmizə gələn Beynəlxalq Avtomobil Federasiyasının (FİA) prezidenti, ralli üzrə keçmiş pilot Mohammad ben Sulayem Azərbaycan Avtomobil Federasiyasının (AAF) prezidenti Anar Ələkbərov ilə görüşüb.

Görüşdə FİA ilə AAF arasında sıx əməkdaşlığın formalaşdığı, bir sıra birgə layihələrin həyata keçirildiyi qeyd edilib, qarşılıqlı əməkdaşlığın inkişafı məsələləri müzakirə olunub. Həmçinin Azərbaycanda avtomobil idmanının inkişafı istiqamətində görülən işlər və reallaşdırılan layihələr barədə məlumat verilib, AAF-ın yol hərəkəti təhlükəsizliyi, avtomobil turizmi ilə bağlı layihələri müzakirə edilib.

* * *

Beynəlxalq Avtomobil Federasiyasının (FİA) prezidenti, ralli üzrə keçmiş pilot Mohammad ben Sulayem Heydər Əliyev Mərkəzini ziyarət edib.

Qonaq əvvəlcə Heydər Əliyev Muzeyində Ümummilli Liderin xidməti istifadəsində olmuş avtomobillərə baxıb. O, muzeydə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinin bütün dövrlərini əhatə edən video və fotoarxiv sənədləri, eləcə də müxtəlif eksponatlarla tanış olub.

"Azərbaycan inciləri: tarixin axarında", "Musiqi alətləri: birlik və müxtəliflik", "Kukla incəsənətdə" sərgilərində olan FİA prezidenti Mərkəzdə nümayiş etdirilən klassik avtomobillərə də baxıb.

FİA prezidenti Mohammad ben Sulayem və Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov məktəblilər arasında "Gələcəyin ekoloji avtomobili" virtual rəsm müsabiqəsinin qaliblərini diplomlarla təltif ediblər. Müsabiqə Azərbaycan Avtomobil Federasiyası və Azərbaycan Avtomobil Dilerləri Assosiasiyası tərəfindən təşkil olunmuşdu.

FİA prezidenti, həmçinin gənclər və idman naziri Fərid Qayıbovla görüşüb. Görüşdə ikitərəfli əlaqələr, Azərbaycan Avtomobil Federasiyasının avtomobil idmanı sahəsindəki fəaliyyəti müzakirə edilib.



## MOK-un 30 illiyinə həsr olunmuş atletika üzrə Azərbaycan birinciliyi keçirilib

Milli Olimpiya Komitəsinin 30 illiyinə həsr olunmuş 2005-2006-cı illər təvəllüdlü oğlan və qızlar arasında atletika üzrə Azərbaycan birinciliyi keçirilib. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının stadionunda təşkil olunan yarışda, ölkənin 15 bölgəsindən 300-ə yaxın idmançı iştirak edib. Yarışlar uzunluğa tullanma, üçtəkanla tullanma, hündürlüyə tullanma, nüvə itələmə, nizə atma, lövhə atma həmçinin müxtəlif məsafələrə qaçış növləri üzrə təşkil olunub. Birinciliyin mükafatçıları ölkəmizi beynəlxalq yarışlarda təmsil edəcəklər.

## "Atletika hamı üçün"

İyunun 12-də Bakıda "İdman hamı üçün" layihəsi çərçivəsində "Atletika hamı üçün" tədbiri keçirilib. Tədbirə qoşulan 100-dən çox iştirakçı yerindən uzunluğa tullanma, tibbi topun atılması (uşaqlar 1 kq, qadınlar 2 kq, kişilər 3 kq), 30 metr məsafəyə qaçış proqramlarında öz qüvvələrini yoxlayıblar. Həmçinin uşaqlar "vorteks atışı"nda, ailələr isə estafet yarışında da özlərini sınayıblar.

Əyləncəli idman tədbirinin təşkilində məqsəd, atletika idman növünün təbliği, idmana marağın artırılması, sağlam həyat tərzinə çağırış və asudə vaxtın səmərəli təşkilidir.

## Karateçimiz Qahirədən gümüş medalla qayıdır

Misirin paytaxtı Qahirədə Karate1 A Seriyası turniri keçirilib. 70 ölkədən 862 karateçinin iştirak etdiyi yarışda Azərbaycan idmançıları da qüvvələrini sınayıblar. Komandamız yarışı bir gümüş medalla başa vurub. Yeganə medalı komandamıza Murad Hacızadə (+84 kq) qazandırıb. Finaladək 5 görüşdə Misir, Niderland və Xorvatiyadan olan rəqiblərinə xal vermədən irəliləyən idmançımız yerli karateçi ilə həlledici görüşdə qələbəni əldən verib. Digər idmançılarımız Samir İbrahimov və Məcid Əmirov (hər ikisi -75 kq) turniri medalsız başa vurublar.



Qeyd edək ki, beynəlxalq dərəcəli hakimlərimiz Cahangir Babayev və Vüqar Kərimov yarışın referiləri arasında olublar.

# Maks Ferstappen Formula 1 Azərbaycan Qran-Prisinin qalibi oldu










*(əvvəli 1-ci səhifədə)*

Yarış başa çatdıqdan sonra qaliblərin mükafatlandırılması mərasimi keçirildi. Qran-Prinin qalibi "Red Bull Racing" komandasının və niderlandlı pilot Maks Ferstappenin şərəfinə Niderlandın və Avstriyanın Dövlət himnləri səsləndirildi. Sonra qaliblərə kuboklar təqdim olundu. Qran-Prinin qalibi Maks Ferstappenə kuboku Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov təqdim etdi.

"Red Bull Racing" komandasının nümayəndəsinə kubok Beynəlxalq Avtomobil Federasiyasının (FIA) prezidenti, ralli üzrə keçmiş pilot Mohammad ben Sulayem tərəfindən təqdim olundu.

Qran-Pridə ikinci yeri tutan Serxio Peresə ("Red Bull Racing) kuboku Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov, üçüncü pillədə qərarlaşan britaniyalı Corc Rasselə ("Mersedes") isə kuboku Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov təqdim etdilər.

Xatırladaq ki, Formula 1 Azərbaycan Qran-Prisinin kuboku Şuşanın 270-ci ildönümünə həsr olunub. Zəngin irsimizin elementlərini özündə birləşdirən yarışın rəsmi mükafatı Azərbaycanın əzəli torpaqlarına - Şuşaya qovuşması və "Şuşa İli" münasibətilə şəhərin ən qədim abidələrindən sayılan Yuxarı Gövhər Ağa məscidinin minarələrinin elementlərini əks etdirir. Kubok üzərindəki naxışlar qabarıq lentlərlə üç hissəyə bölünmüş və rəngli daşlarla bəzədilmiş minarələrin kərpiclə hörülmüş səthini xatırladır. Milli naxış və elementlər yarışın saf gümüşdən hazırlanmış dörd kubokunun (pilotlar üçün 1, 2 və 3-cü yer kuboku və Konstruktorlar Kuboku) üzərində mövcuddur.

"Red Bull Racing" komandası Formula 1 Azərbaycan Qran-Prisində qələbə dubluna imza atdı. Formula 1 üzrə dünya çempionatının səkkizinci mərhələsi olan Bakı mərhələsində Avstriya komandasının hər iki pilotu podiumda yer aldı. Belə ki, Maks Ferstappen yarışın qalibi olsa da, onun komanda yoldaşı Serxio Peres yürüşü ikinci pillədə tamamladı. Bu, komandanın cari mövsümdə üçüncü belə uğurudur. Komanda tarixində 20 dəfə qələbə dublu sevinci yaşayıb.

Formula 1 Azərbaycan Qran-Prisində ən yaxşı dövrə "Red Bull Racing" komandasının pilotu Serxio Peresə məxsusdur. Meksikalı pilot dövrəni 1 dəqiqə 46,046 saniyəyə qət etdi. Onun bu uğuru 36-cı dövrəyə təsadüf etdi.

Məlumat üçün bildirək ki, Bakıdakı Formula 1 yarışında hər biri iki pilotdan ibarət 10 komanda mübarizə aparıb. Pilotlar Bakı şəhər trekində 51 dövrə vurublar. Qran-Pridə "Mercedes" komandasının heyətində Luis Hamilton və Corc Rassel, "Ferrari" komandasında Karlos Sayns və Çarls Lekler, "Williams"ın heyətində Aleksander Albon və Nikolas Latifi yarışıblar. "Red Bull Racing" komandasında Serxio Peres, Maks Ferstappen, "Alpha Tauri"də Pyer Qasli və Yuki Tsunoda, "Alpine"da isə Fernando Alonso ilə Esteban Okon mübarizə aparıblar. Bundan başqa, "Alfa Romeo"nun heyətində Valtteri Bottas və Cou Quanju, "McLaren"də Daniel Rikkardo və Lando Norris yürüşdə iştirak ediblər. Pilotlar Mik Şumaxer və Kevin Maqnussen "Haas", Sebastian Fettel və Lans Stroll "Aston Martin" komandasının idman şərəfini qoruyublar.

Elə həmin gün Formula 1 Azərbaycan Qran-Prisi çərçivəsində Bakıda keçirilən Formula 2 üzrə əsas yarışın qalibləri də müəyyənləşdi. 29 dövrənin yekununda "Prema Racing" komandasının pilotu Dennis Hauger bütün rəqiblərini qabaqladı.

Qeyd edək ki, yarışa liderlik edən "Hitech Grand Prix" komandasının üzvü Yuri Vipsin bolidi qoruyucu səddə çırpıldığından o, mübarizəni davam etdirə bilmədi. "Carlin" komandasının pilotu Logan Sargeant ikinci, "MP Motorsport"un sürücüsü Felipe Druqoviç üçüncü yeri tutdu. Ümumilikdə bu yarışda 6 pilot mübarizəni sonadək davam etdirə bilmədi.

Qeyd edək ki, iyunun 11-də isə Formula 2 yarışının sprint yürüşünün qalibləri mükafatlandırıldı.

Yürüşdə "ART Grand Prix" komandasının pilotu Frederik Vesti birinci, "Prema Racing"dən Cehan Daruvala ikinci, "Carlin" komandasının sürücüsü Liam Louson isə üçüncü oldular.

Mükafatları pilotlara Azərbaycanın gənclər və idman nazirinin müavini Mariana Vasileva, Azərbaycan Avtomobil Federasiyasının vitse-prezidenti Adil Kərimli və Milli Məclisin deputatı Nigar Arpadarai təqdim etdilər.







AZERBAIJAN

| # | DRIVER | TEAM | GAP |
|---|---|---|---|
| 1 | MAX VERSTAPPEN | RED BULL | WINNER |
| 2 | SERGIO PÉREZ | RED BULL | +20.823 |
| 3 | GEORGE RUSSELL | MERCEDES | +45.995 |
| 4 | LEWIS HAMILTON | MERCEDES | +71.679 |
| 5 | PIERRE GASLY | ALPHATAURI | +77.299 |
| 6 | SEBASTIAN VETTEL | ASTON MARTIN | +84.099 |
| 7 | FERNANDO ALONSO | ALPINE F1 TEAM | +88.596 |
| 8 | DANIEL RICCIARDO | MCLAREN | +92.207 |
| 9 | LANDO NORRIS | MCLAREN | +92.556 |
| 10 | ESTEBAN OCON | ALPINE F1 TEAM | +108.184 |
| 11 | VALTTERI BOTTAS | ALFA ROMEO | +1L |
| 12 | ALEXANDER ALBON | WILLIAMS | +1L |
| 13 | YUKI TSUNODA | ALPHATAURI | +1L |
| 16 | NICHOLAS LATIFI | WILLIAMS | +1L |
| 15 | MICK SCHUMACHER | HAAS F1 TEAM | +1L |
| 16 | LANCE STROLL | ASTON MARTIN | DNF |
| | KEVIN MAGNUSSEN | HAAS F1 TEAM | DNF |
| | GUANYU ZHOU | ALFA ROMEO | DNF |
| | CHARLES LECLERC | FERRARI | DNF |
| | CARLOS SAINZ | FERRARI | DNF |

# Madrid sınağı 2 medalla yadda qaldı




İspaniyanın paytaxtı Madriddə cüdo üzrə açıq Avropa kuboku yarışı keçirilib. 40 ölkədən 426 (273 kişi, 153 qadın) cüdoçunun iştirak etdiyi yarışda Azərbaycan idmançıları da qüvvələrini sınayıblar. Komandamız yarışda 13 idmançı ilə təmsil olunub.

Cüdoçularımız yarışı 1 gümüş və 1 bürünc medalla başa vurublar. Gümüş medalı komandamızın aktivinə Nazir Talıbov (60 kq) yazdırıb. Bürünc medalı isə qadın cüdoçumuz Leyla Əliyeva (48 kq) qazanıb.

Qeyd edək ki, Azərbaycan Cüdo Federasiyasının beynəlxalq dərəcəli hakimləri Nazim Umbayev və Akif Tahirov turnirdə ədalət təmsilçiləri arasında yarışları idarə ediblər.

* * *

Hövsan qəsəbəsində yerləşən Fövqəladə Hallar Nazirliyinin İdman Sağlamlıq Mərkəzində 23 yaşadək qadın və kişi cüdoçular arasında Azərbaycan çempionatı keçirilib. Azərbaycan Cüdo Federasiyası və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən yarış Milli Olimpiya Komitəsinin yaranmasının 30 illiyinə həsr olunub. Turnirdə paytaxtın müxtəlif klublarından, cəmiyyətlərindən və idman təşkilatlarından ümumilikdə 14 çəki dərəcəsində 330 idmançı mükafatlar uğrunda mübarizə aparıb. Yekun nəticələrə görə, kişilər arasında Rəşad Məmmədov (60 kq), Sabir İsmayılov (66 kq), Vilayət Cəlilli (73 kq), Rəşid Məmmədəliyev (81 kq), İbrahim Ağakişiyev (90 kq), Süleyman Yaqubov (100 kq), Camal Feyziyev (+100 kq) qalib olublar.

Qadınların yarışında isə Fəridə Mirzəyeva (48 kq), Vüsalə Kərimova (52 kq), Rəmziyyə Hüseynova (57 kq), Sevda Nəbiyeva (63 kq), Zeynəbxanım Əsəbova (70 kq), Günel Quliyev (78 kq) çempion adına layiq görülüblər.

Çempionatın qalibləri iyulun 12-14-də keçiriləcək Azərbaycan çempionatına vəsiqə qazanıblar.

Həndbol

# Ölkəmizdə həndbolun inkişafı istiqamətində fikir mübadiləsi aparılıb

Avropa Həndbol Federasiyasının Avstriyanın paytaxtı Vyanada yerləşən baş ofisində görüş keçirilib. Azərbaycan Həndbol Federasiyasının (AHF) prezidenti Saleh Məmmədov, birinci vitse-prezident Orxan Abbasov və beynəlxalq əlaqələr şöbəsinin müdiri Ernest Ağakişi Avropa Həndbol Federasiyasının prezidenti Mixael Viderer və baş katib Martin Hausleytner ilə görüşdə bir sıra məsələləri müzakirə edib.



AHF-nin mətbuat xidmətindən verilən məlumata görə, görüş zamanı Azərbaycanda həndbolun inkişaf istiqaməti, qarşılıqlı əməkdaşlıq, beynəlxalq yarışların keçirilməsi, uşaq həndbolunun inkişaf etdirilməsi, gənc hakimlərin yetişdirilməsi, məşqçilərin beynəlxalq seminarlarda iştirakı, həmçinin Avropa Həndbol Federasiyasında fəaliyyət göstərən komissiyalarda təmsilçilik barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycan həndbolundan bəhs edən videoçarx nümayiş olunub, nümayəndə heyətimiz tərəfindən Avropa Həndbol Federasiyasının prezidentinə hədiyyələr təqdim edilib.

* * *

Qadın həndbolçulardan ibarət Azərbaycan millisi V İslam Həmrəyliyi Oyunlarına hazırlığı davam etdirir. Avqustda keçiriləcək yarışlara hazırlaşan komandamız hazırlığın ilkin mərhələsinə mayın 15-də Bakıda start verib. İyirmi iki həndbolçunun cəlb olunduğu toplanışa baş məşqçi Slavisa Ristiçeviç rəhbərlik edir. Köməkçi məşqçi Fuad Yangildindir.

Məşqlər "Sərhədçi" Olimpiya İdman Mərkəzi və "Dinamo" İdman Cəmiyyətində keçirilir.

İyunun 15-də Bakıda yekunlaşacaq toplanış ardınca ölkə xaricində davam etdiriləcək.

Millimiz iyunun 24-dək Gürcüstanda hazırlıq keçəcək. Həmin təlim-məşq toplanışında da bir neçə yoxlama oyununun keçirilməsi planlaşdırılır.

Hazırlıq planına əsasən, seçmə komanda digər toplanışlara da qatılacaq.

Qeyd edək ki, avqustun 9-18-də Türkiyənin Konya şəhərində keçiriləcək İslam Oyunlarındakı rəqiblər hələlik məlum deyil.

## Redaksiyanın poçtundan

# Lerikdə mini futbol yarışı keçirilib

15 iyun - Milli Qurtuluş Günü münasibətilə Lerik şəhər 2 saylı tam orta məktəbinin meydançasında gənclər arasında mini futbol turniri keçirilib. Çoxlu futbol azarkeşin marağına səbəb olan turniri ərsəyə gətirənlər rayon Gənclər və İdman İdarəsi, YAP Lerik rayon təşkilatı idilər.

YAP Lerik rayon təşkilatının sədri Malik Mirzəyev, rayon Gənclər və İdman İdarəsinin rəisi Natiq İsaqov yarış qabağı çıxış edib Milli Qurtuluş Günü, onun tarixi barədə iştirakçılara ətraflı məlumat veriblər.

Gərgin idman mübarizəsi şəraitində davam edən turnirdə birinci yeri Lerik şəhərini təmsil edən "Gənclik" komandası tutub. "Şahinlər " komandası ikinci, Lüləkaran kəndini təmsil edən "Ramo" komandası isə üçüncü yerə sahib çıxıb.

Qalib komandalara medal və diplomlar YAP Lerik rayon təşkilatı, rayon Gənclər və İdman İdarəsi tərəfindən təqdim edilib.

* * *

Masallı rayonunda 15 iyun - Milli Qurtuluş Gününə həsr olunmuş "Qurtuluş" yürüşü keçirilib. Yürüşün təşkilatçıları Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyasının Masallı Rayon Təşkilatı, Masallı rayon Gənclər və İdman İdarəsi, Masallı Gənclər evi, Azərbaycan Atletika Federasiyası və Bakı Marafon klubu idilər. Yürüşqabağı Masallı Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov, hüquq-mühafizə orqanlarının, gənclər təşkilatlarının rəhbərləri və qonaqlar ulu öndər Heydər Əliyevin abidəsini, eləcə də Qəhrəmanlar Parkı Şəhidlər Abidə Kompleksini ziyarət ediblər. İcra Hakimiyyətinin qarşısında Milli Qurtuluş Günü münasibətilə "fləşmob" da keçirilib.




"Qurtuluş" yürüşü Masallının məşhur "Halay" folklor ansamblının tamaşaçılar və qonaqlar qarşısında gözəl musiqi sədaları altında rəqsi ilə başlayıb. Yürüşdə iştirakçıları İcra Hakimiyyətinin qarşısındakı Qəhrəmanlar parkından start götürərək İntiqam Əsgərli küçəsi, Bakı və Heydər Əliyev prospektləri, Qarabağ küçələri marşrutu üzrə hərəkət edib sonda təyin olunan finiş xəttinə çatıblar.

Yürüşün sonunda Gənclər və İdman İdarəsi tərəfindən fərqlənən iştirakçılara təşəkkürnamə təqdim olunub.

* * *

Bu günlərdə Lənkəran Olimpiya İdman Kompleksində Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin yanında İctimai Şura üzvlərinin Lənkəran rayonunun bir sıra məşqçi-müəllimi və idmançıları ilə görüşü keçirilib. Şəhər Gənclər və idman idarəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə 60 nəfər idmançı iştirak edib.

İctimai şuranın üzvləri A.Əliyev, İ.Cavanşir və N.Şıxəliyeva idmançılar qarşısında çıxış edərək ölkəmizdə dövlətin idmana olan qayğısından danışıblar.

Daha sonra söz məşqçi-müəllimlərə verilib. Məşqçi-müəllimlər problemlərin həlindən ötrü öz təkliflərini irəli sürüblər.

Çıxışlar bitəndən sonra İctimai şuranın üzvləri tədbirdə iştirak edən idmançıların maraq dairəsində olan suallara cavab verib, onlarla birlikdə fikir mübadiləsi aparıblar.

*Zəfər Orucoğlu,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# "Bakı" Milli Qurtuluş Gününə həsr olunmuş turnirin qalibi oldu

2005-2006-cı illər təvəllüdlü voleybolçu oğlanlar arasında keçirilən 15 iyun - Milli Qurtuluş Gününə həsr olunmuş açıq voleybol turnirinə yekun vurulub. 4 komandanın - "Masallı", "Bakı", "Sumqayıt" və "Cəlilabad" mübarizə apardığı yarış dairəvi sistemlə keçirilib.

Gərgin və maraqlı mübarizə şəraitində keçən görüşlərdən sonra 9 xal toplayan "Bakı" komandası turnirin qalibi adını qazanıb. Liderdən 3 xal az toplayan "Cəlilabad" voleybolçuları gümüş medallara layiq görülüblər. Aktivində 3 xal olan "Masallı" komandası isə bürünc medala sahib çıxıb.

Azərbaycan Voleybol Federasiyası və Masallı rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən turnirin qaliblərinə kubok və diplomlar təqdim olunub. Mükafatları Masallı rayon Gənclər və İdman İdarəsinin rəisi Sabiq Cahangirov, Azərbaycan Voleybol Federasiyasının nümayəndəsi, oğlan voleybolçular üzrə seleksiyaçı məşqçi Yaqub Rəsulov və Masallı rayon rəsmiləri təqdim ediblər.

# Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsinin idman xronikası

Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə 2005-ci il və daha kiçik təvəllüdlü oğlan və qızlar arasında ağır atletika üzrə şəhər birinciliyi keçirilib. Sumqayıt Olimpiya İdman Kompleksində təşkil olunan yarışda 30-dan artıq idmançı qalib adı uğrunda mübarizə aparıb. Gərgin idman mübarizəsi şəraitində iki gün davam edən yarışda Zəhra Niftəliyeva (64 kq), Arzu Qədimova (71 kq) qızlar arasında, İbrahim Rəsulzadə (40 kq), Turan Abbasov (45 kq), Fərman Məhərrəmov (49 kq), Azər Mənsimov (55 kq), Turan Əliyev (61 kq), Fərid Mərdanov (67 kq), Fuad Qədimov (73 kq), Cavidan Muxtarlı (81 kq) və Rəbbani Niftəliyev (89 kq) oğlanlar arasında fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

* * *

Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsi ilə "Təhsil" Respublika İdman Mərkəzinin təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş 2010-cu il və daha kiçik təvəllüdlü oğlan və qızlar arasında 3x3 basketbol üzrə şəhər birinciliyi keçirilib. 1 saylı İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq Gənclər İdman Şahmat Məktəbində gərgin idman mübarizəsi şəraitində davam edən birincilikdə oğlanlar və qızlar arasında müvafiq olaraq 2 və 18 saylı tam orta məktəblərin komandaları fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

* * *

İyunun 10-11-də Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə Nəsimi adına Mədəniyyət və İstirahət parkının idman sağlamlıq mərkəzində 15 İyun - Milli Qurtuluş Gününə həsr edilmiş gənclər təşkilatları arasında voleybol üzrə şəhər turniri keçirilib. Gərgin və maraqlı idman mübarizəsi şəraitində keçən yarışda Sumqayıt "Asan Xidmət" Mərkəzinin komandası bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. 27 saylı tam orta məktəbin və Gənclər və İdman Baş İdarəsinin komandaları isə müvafiq olaraq, ikinci və üçüncü yerləri tutublar.



Yarışın qalib və mükafatçıları Baş İdarə tərəfindən fəxri fərman, medal, kubok və hədiyyələrlə təltif olunublar.

Voleybol

***Bu ilin avqust ayı voleybol üzrə milli komandalarımız üçün çox gərgin keçəcək. Həm kişi, həm də qadınlardan ibarət millilərimiz Avropa çempionatının təsnifat mərhələsində və Türkiyənin Konya şəhərində keçiriləcək V İslam Həmrəyliyi Oyunlarında iştirak edəcək. Artıq komandalarımız bu mötəbər yarışların hazırlıqlarına başlayıb. Belə ki, qadın voleybolçulardan ibarət Azərbaycan millisi mayın 30-da "Murov" Voleybol Klubunun idman zalında təlim-məşq toplanışına start verib. 25 idmançının cəlb olunduğu toplanışa Eldar Yusubov rəhbərlik edir. Ona Vüqar Əliyev və Emin Əbilov kömək edirlər.***



# Voleybolçularımız mötəbər yarışlara hazırlaşır

## Yığmamız Konyada titulunu qorumağa çalışacaq

Bu günlərdə Biləcəridə yerləşən "Murov" Voleybol Klubunun idman zalında olduq, komandamızın yarışlara hazırlıq prosesi ilə maraqlandıq.

Komandamızın baş məşqçisi Eldar Yusubov voleybolçularımızın yarışlara yüksək əhval-ruhiyyədə hazırlaşdıqlarını bildirib. Baş məşqçi yaxın günlərdə hazırlıq prosesinə ölkə çempionatında və xarici klubların heyətində çıxış edən digər voleybolçularımızın da qoşulacağını qeyd edib.

"Heyətimiz tam olaraq bu ayın sonuna kimi yığılacaq və məşqlərimizə birgə davam edəcəyik. Komandamız hazırlıq prosesindən sonra ilk olaraq İslam Həmrəyliyi oyunlarında mübarizəyə başlayacaq. Konyadakı yarışda rəqiblərimiz hələ ki, müəyyənləşməyib. İstəyirik ki, İslam Həmrəyliyi Oyunlarından Vətənə medalla qayıdaq. Bundan başqa Avropa çempionatının final mərhələsinə çıxmaq da vacibdir. Bundan sonra səhvlərin üzərində işləyib, yaxşı nəticə göstərməyə çalışacağıq".

Milli komandamızın digər təcrübəli üzvü Aynur İmanova isə məşqlərdə əsas üstünlüyü fiziki hazırlıqlara verdiklərini bildirib: "İstər zalda, istər sahil qırağında, istərsə də stadionda əsas üstünlük fiziki hazırlıqlarla bağlıdır. Oyunlara qədər ölkə xaricində də təlim məşq toplanışında və yoldaşlıq görüşlərində iştirak edəcəyik. Bu hazırlıqlardan sonra həmin yarışlarda iştirak edəcəyik. Çalışacağıq ki, yarışlara qədər bütün çatışmazlıqları aradan qaldıraq. Hələ ki, heç bir komanda haqqında indidən bir söz deyə bilmərəm. Hər şey bizim oyunlara necə hazırlaşmağımızdan asılıdır. Yalnız hazırlıqların sonunda nəsə bir fikir demək olar. Hər bir komandanın öz, taktikası, oyun üslubu var. Biz də onlara uyğun məşq edib, qalib gəlməyə çalışacağıq. Rəhbərlik tərəfindən qarşımıza V İslam Həmrəyliyi Oyunlarında birinci yeri tutmaq hədəfi qoyulub. Biz 2017-ci ildə Bakıda keçirilən İslam Həmrəyliyi Oyunlarında birinci yeri tutmuşduq. Çox istəyirik ki, Konyada da bu uğuru təkrarlayaq. Bundan sonrakı hədəfimiz isə Avropa çempionatının təsnifat mərhələsində uğurla çıxış edərək, növbəti mərhələyə vəsiqə qazanmaqdır", - deyə Aynur İmanova qeyd edib.



digər hədəflərimizdən biridir. Komandamız təsnifat mərhələsində D qrupunda mübarizə aparacaq. Rəqiblərimiz isə Sloveniya, Gürcüstan və Avstriya millilləri olacaq. Bizi kifayət qədər maraqlı oyunlar gözləyir. Qrupumuzdakı hər bir rəqib güclüdür. Mənə elə gəlir ki, məşqlərdən sonra istədiyimiz heyəti qura bilsək, qarşıya qoyduğumuz hədəflərə çata biləcəyik", - deyə Eldar Yusubov qeyd edib.

Yığma komandamızın liberosu Yuliya Kərimova isə qarşıda komandamızı çətin sınaqların gözlədiyini bildirib. Lakin 34 yaşlı voleybolçumuz bu oyunlarda gözəl nəticələrə ümid bəslədiyini qeyd edib: "Komandada yüksək əhval-ruhiyyə hökm sürür. Hazırlıq prosesində heç bir çətinlik yoxdur. Təbii ki, oyun zamanı hər şey ola bilər. Hazırlıq prosesimizdən çox şey asılıdır. Buna görə də müsbət və mənfi cəhətlərimizi görmək, ümumiyyətlə, səhvlərimizi dəqiq bilmək üçün yoldaşlıq oyunlarında iştirak etmək

## Hədəf Avro-2023-də və İslamiadada uğurlu nəticəyə yönəlib

Qadın millilərimizdən fərqli olaraq, kişilərdən ibarət voleybol yığmamız həm Avro-2023-ün təsnifat mərhələsinə, həm də İslamiadaya hazırlıqlarına may ayının 15-dən başlayıb. Komandamız ilkin mərhələdə məşqlərə Bakıda start verib. 24 voleybolçunun cəlb olunduğu toplanışa baş məşqçi Pərviz Səmədov rəhbərlik edir. Ona Mixail Solovyov və Akif Vəliyev kömək edirlər. Bakıda təşkil olunan təlim-məşq toplanışı "Sərhədçi" İdman Olimpiya Mərkəzinin idman zallarında və Bakı Su İdmanı Sarayında keçirilir.

Hazırlıq planına əsasən millimiz iyunun 20-dək Bakıda, daha sonra ölkə xaricində hazırlıqlara davam edəcək və bir neçə yoxlama oyununda qüvvəsini sınayacaq.

Bu günlərdə kişilərdən ibarət voleybol üzrə yığma komandamızın məşq etdiyi "Sərhədçi" İdman Olimpiya Mərkəzində də olduq. Arenada olduğumuz müddətdə komandanın üzvlərinin məşqlərə necə can yandırdığına və yarışlara böyük həvəslə hazırlaşdıqlarına şahidlik etdik. Yığma komandanın məşqçisi Pərviz Səmədov qəzetimizə məşqlər barədə məlumat verərək qarşılarına qoyduqları hədəflər barədə danışıb: "Bir aya yaxındır ki, hazırlıq prosesinə başlamışıq. Fiziki hazırlığımız dəniz kənarında keçdi. Hazırda isə məşqlərimiz "Sərhədçi" İdman Olimpiya Mərkəzində davam edir. Yarışlara iki ay vaxtımız var. Bundan sonra isə oyunlarımız olacaq. Komandamız əvvəlcə Avropa təsnifat turnirində, daha sonra isə Konyada keçiriləcək V İslam Həmrəyliyi Oyunlarında iştirak edəcək. Avro-2023-ün seçmə mərhələsində A qrupunda iştirak edəcəyik. Rəqiblərimiz isə Türkiyə və Danimarka komandaları olacaq. Skandinaviya təmsilçiləri ilə bu yarışa qədər bir neçə dəfə üz-üzə gəlmişik. Çox güclü komandadır. Qrupdakı digər rəqibimiz Türkiyə də yetərincə güclü heyətə malikdir. Məşqlərdə bacardığımız qədər çox çalışıb, Avropa çempionatının final mərhələsinə vəsiqə qazanmaq istəyirik.

Avropa çempionatının təsnifat mərhələsindən sonra V İslam Həmrəyliyi Oyunlarında iştirak edəcəyik. Ona görə də bu hazırlıq hər iki yarışa hesablanıb. Əsas hədəfimiz İslamiadada və Avro-2023-ün təsnifat mərhələsində uğurla iştirak etməkdir".

Yığma komandamızın üzvü Vüqar Bayramov isə Qazaxıstanın "Taraz" komandasının düşərgəsindən qayıtdıqdan sonra məşqlərə qoşulduğunu bildirib. O, qarşıdakı yarış təqviminin sıx olmasına baxmayaraq, oyunlardan gözəl nəticələr əldə edəcəklərinə inandıqlarını bildirib:

"Komandamıza yeni gənc oyunçular dəvət olunub. Bakıdakı hazırlıqlardan sonra ölkə xaricində də təlim-məşq toplanışında da iştirak edəcəyik. Çalışacağıq ki, qarşıdakı yarışlarda bizə olan etimadı doğruldaq. Qeyd edim ki, mən Qazaxıstanın "Taraz" klubunda çıxış etdiyim üçün hazırlıq prosesinə bir qədər gec qoşuldum. Bu klubun heyətində Qazaxıstan və Asiya çempionatında iştirak etdim. Komandamız Asiya çempionatında dördüncü yeri tutdu. Düzdür, müəyyən qədər yorğunluq var. Amma bir az istirahət edib, yenidən məşqlərə başladım. Çünki zamanımız yoxdur".



V.Bayramov həmçinin Avro-2023-ün A qrupunda qarşılaşacaqları rəqiblərini də dəyərləndirib.

"Həm Danimarka, həm də Türkiyə Avropa voleybolunda güclü komandalardan hesab olunur. Bu baxımdan rəqibləri dəyərləndirsək, bizi çətin oyunlar gözlədiyini demək olar. Amma bu, o demək deyil ki, biz hazırlıqsız və ya zəif komandayıq. Son ana qədər mübarizə aparacağıq. İnanıram ki, oyunlarda yaxşı nəticələr əldə edəcəyik", - deyə Vüqar Bayramov vurğulayıb.

Kişilərdən ibarət yığma komandamızın digər üzvü Aqil Ağazadə isə komandaya təlim-məşq keçmək üçün yaradılan şəraitə görə federasiya rəhbərliyinə minnətdarlığını bildirib. A.Ağazadə həmçinin Avro-2023-ün təsnifat mərhələsindəki və Konya İslam Oyunlarındakı rəqibləri barədə də danışıb: "Əvvəlcə fiziki hazırlıqlar üzərində çalışdıq. Bir neçə gün olar ki, toplarla məşqlərə keçmişik. Paralel olaraq isə fitness və trenajor məşqləri edirik. Oyunlarımız həm ev, həm də səfərdə olacaq. Real düşünsək Avro-2023-dəki rəqiblərimiz çox güclüdür. Amma biz də qələbə qazanmağa çalışacağıq. Bundan başqa komandamız İslam Həmrəyliyi Oyunlarında da mübarizə aparacaq. Bakı-2017-də gümüş medal qazanmağımız məsuliyyətimizi daha da artırır. Çalışıb Konyada da uğurlu nəticə qazanmalıyıq. Düzdür, Bakı 2017-də ev sahibi olduğumuz üçün böyük üstünlüyümüz var idi. Bakıdakı yarışda Türkiyə, Pakistan və Qətər komandaları yaxşı formada idi. Konyadakı İslamiadaya isə Misir və Qazaxıstan kimi yüksək hazırlığa malik komandalar da gələcək. İnanıram ki, güclü rəqiblərlə mübarizədə gözəl nəticələrlə xalqımızı sevindirəcəyik".

Qeyd edək ki, qadın voleybolçularımız Avro-2023-ün təsnifat oyunlarında D qrupunda Sloveniya, Gürcüstan və Avstriya milliləri ilə mübarizə aparacaq. V İslam Həmrəyliyi Oyunlarında isə komandamızın rəqibləri hələlik məlum deyil.



A qrupunda yer alan kişi voleybolçularımızın Avro-2023-ün təsnifat mərhələsindəki rəqibləri isə Türkiyə və Danimarka milliləri olacaq. Qadınlarda olduğu kimi, kişi komandamızın da V İslam Həmrəyliyi Oyunlarındakı rəqibləri müəyyənləşməyib.

*Azər Əlizadə,*
*Türkay Niftəliyeva*

**Dahi məşqçilərin futbol fəlsəfəsi**

# Böyük təcrübənin xırda nüansları

Yaxşı baş məşqçi komandanın uğurlarının əsas hissəsini təşkil edir. Heyətdə nə qədər ulduz futbolçu olursa olsun, məşqçi onları "ipə-sapa düzə bilmirsə", komandanın heç bir tutarlı nailiyyəti olmayacaq. İdmanın bir sıra növlərində məşqçilik işinin xüsusiyyətlərini əks etdirən məqalələri oxucuların diqqətinə çatdıran "Olimpiya dünyası" qəzeti bu saydan etibarən "Dahi məşqçilərin futbol fəlsəfəsi" rubrikası altında silsilə yazılara start verir. Bu rubrika altında dərc edəcəyimiz yazılarda dünyanın ən yaxşı futbol məşqçilərinin futbol fəlsəfəsini əks etdirən məqamları bir araya toplamağa çalışacağıq.

"Dahi məşqçilərin futbol fəlsəfəsi"nə bu dəfə Lui Van Qalın düşüncələrilə yanaşacağıq.

1991-ci ildən "Ayaks"da məşqçilik fəaliyyətinə başlayan "Dəmir zanbaq" ləqəbli Lui Van Qal növbəti illərdə "Barselona" "AZ Alkmaar", "Bavariya" və "Mançester Yunayted"in uğurları üçün çalışıb. Bununla yanaşı, o, fərqli illərdə Niderland millisinin sükanı arxasında olub. Dünyanın ən yaxşı məşqçiləri arasında yer alan Van Qalın məşqçilik təcrübəsində əldə etdiyi uğurlar barəsində maraqlı fikirləri təqdim edirik.





## "Mənim üçün qaydalar lap əvvəldən başlayır"

- Futbol komanda oyunudur, heyətin hər bir üzvü biri-birindən asılıdır. Əgər bir futbolçu öz üzərinə düşən işin öhdəsindən gələ bilmirsə, məsuliyyət hiss etmirsə, bu ümumi komandanın işinə maneə yaradacaq. Xırda bir etinasızlıq, qaydaların pozulmasına gətirib çıxaracaq. Yaşıl meydandan kənarda yerinə yetirilməyən tapşırıq, matç zamanı özünü mütləq biruzə verəcək. Yaxud əksinə, oyun zamanı əldə ediləcək yüksək nəticəyə təsir edə biləcək.

Hər bir baş məşqçinin öz qaydaları var. Mənim üçün qaydalar lap əvvəldən başlayır. Məşqə gələn futbolçu ən azı 30 dəqiqə tez gəlməlidir. Onun məşq zamanı özü ilə gətirdiyi əşyalar və geyim dəsti çox təmiz olmalıdır. Nahar vaxtı futbolçularla bir yerdə yemək yeyəndə futboldan kənar mövzularda danışmamalı, diqqətini yayındırmalı deyil.



Oyundan əvvəl heyətlə birlikdə matça gələrkən komandanın avtobusunda öz yerini tutmalıdır. Mən bu məqamlara çox həssas yanaşıram. Əgər bu tələblərimi qulaqardına vuran futbolçu varsa, onu fərdi söhbətə çağırıram. Onu başa salmağa çalışıram. Komandanın bir yerə toplaşdığı yerdə bir futbolçuya irad bildirmək yaxşı nəticə verməyəcək. Lap son məqamda onu cəzalandırmaq barədə qərar verirəm. Dərhal tədbir görmək məşqçinin zəifliyindən irəli gəlir.

Heyətdə futbolçular arasında münasibət bir xətt üzərində getməlidir. Əgər bir futbolçu komanda yoldaşları ilə yola getmirsə, bu, mənim işimi çətinə salacaq. Həmin bu anlaşılmazlıq matç zamanı açıq-aşkar özünü biruzə verəcək. Bütün qaydalara mən özüm hamıdan qabaq riayət etməliyəm. Futbolçu görəndə ki, mən ondan tələb etdiklərimi özüm yerinə yetirmirəm, mənə ciddi yanaşmayacaq. Əvvəl özüm etməliyəm ki, sonradan onlardan bunu tələb edim. Minlərlə tələblərin arasında ən adi məqamları qeyd edirəm.

## "Futbolçu səndən yox, sənə tərəf qaçmalıdır"

Məşq prosesi bir futbolçunu "oxumaq" üçün əla bir fürsətdir. Qeyd edim ki, məşqdə tələbkarlıq əsas meyardır. Arabir onlara sərbəstlik verməli, hətta xırda zarafatlar üçün şərait yaradılmalıdır. Hər məşqdə futbolçunun şəxsi vəziyyəti ilə maraqlanmalısan. Onun problemlərindən xəbərdar olmalısan. Futbolçu səndən yox, sənə tərəf qaçmalıdır. Hərdən məşqləri saxlayıb, futboldakı vəziyyəti onlara başa salmalısan. Rəqibin üstünlüklərini və çatışmazlıqlarını bu və ya digər şəkildə, hətta obrazlı şəkildə onlara çatdırmalısan. Bir məşqçi komandanın bütün üzvlərini - tibb personalından ta ki, avtobus sürücüsünə qədər yaxşı tanımalıdır. Biz komandada bir ailəyik. Ailə isə ayrı fərdlərin bir zəncir kimi düzülüşüdür. Orada zəif bənd ola bilməz. Mənim düşüncələrimi kənardan qınaq obyektinə çevirən insanlara hər zaman təşəkkür edirəm. KİV-lərin yazdıqlarına da diqqətlə yanaşıram. Onlar yazıb, danışdıqca, onlar tənqid etdikcə mən özümü özümdə tapmağa çalışıram.



## "Səhvlərdən nəticə çıxarmaq özü bir üstünlükdür"

- Tərif həmişə tərifdir. Olub, olacaq. Tənqid və qınaq da sənin işinə kənardan verilən qiymətdir. Özündə güc tapıb, o qiymətə layiq olduğunu düşünməlisən. Əgər doğrudan da düz və yerində tənqid edilirsənsə, deməli bunu nəzərə alıb, zamanında aradan qaldırmalısan. Komandan uduzursa, deməli sən olanları və illərdən bəri əldə etdiyin təcrübəni lazımı səviyyədə çatdıra bilməmisən. Hər bir tənqid sənin yüksəlişin üçün tramplin olmalıdır. Psixoloji cəhətdən zəif olduğun anda sən irəli deyil, geriyə yuvarlanacaqsan. Belə olduğun halda sənə olunan hörmət azalacaq, nüfuzun kölgə altına düşəcək. Bu, həyatın hər bir anında eyni qayda üzrə hökm sürən fəlsəfədir. Hərdən deyirlər ki, kənardan səslənən fikirlərə əhəmiyyət vermək lazım deyil. Mən belə düşünmürəm. Kənardakılara qulaq asmaq lazımdır, amma hərdən. Səni tənqid edənləri bir qədər yaxşı tanımalı, onların nəyə qadir olduğunu bilməlisən. Əgər tənqiddə həqiqət varsa, niyə də qulaq asmayasan? Səhvlərdən nəticə çıxarmaq özü bir üstünlükdür. Hər bir kütlənin düşüncəsinə uyğun tənqidləri aradan qaldırıb, həmin kütləni geridə qoya bilərsən. Beləliklə, onlardan uzaqlaşar, əlçatmaz olarsan.

## "Azarkeş səndən də tələbkardır"

- Tərif yaxşı şeydir, amma qədərində. Tərifə təslim oldunsa, yeni uğurlar üçün bir qədər vaxt itirəcəksən. Komandanın qələbəsi yeni bir mərhələ olmalıdır. Hətta finala çıxıb, kuboku əldə etsən belə. Çünki, futbol yenilikləri sevir. Bir qələbə ilə kifayətlənmək olmaz. Axı azarkeş səndən də tələbkardır. O, növbəti uğuru elə indidən gözəyir. Əgər bu uğurun ardı gəlməsə, onu təsadüfi qələbə kimi qələmə verəcək. Düşünəcək ki, bu məşqçinin bacardığı buraya qədərmiş. Məşqçi olmaq asan bir məsələ deyil. Kənardan asan görünə bilər. Necə ki, hündür binanı hamı yüksəkdə görür. Lakin onun necə inşa olunmasını hər adam anlaya bilmir.

Məşqçi özündən razı ola bilər. Amma bunu kənardakılar hiss etməli deyil. Mən öz daxilimdə özmədən razıyam. Ona görə ki, fikirlərimin hamısını məşqçilik karyeramda tətbiq edib, nəticə qazanmışam. Hansı klubda uğur əldə edə bilməmişəmsə, deməli ya məni başa düşməyiblər, ya da mən onları anlaya bilməmişəm. Uğurlarıma görə onlara təşəkkür edirəm. Ona görə ki, onlar mənə təcrübəmin zəif olmadığını və peşəkar olmağımı sübut etmək üçün vasitəçi olublar.

Tənqid edənlərə də minnətdaram. Yəqin onların istədiyi kollektiv və münasibət qura bilməmişəm.

*Hazırladı:*
*Anar Əhmədov*

## Bir cümlə, bir xəbər

- Argentina millisinin və Fransanın PSJ klubunun ulduz futbolçusu Lionel Messi Latın Amerikasının "Müdafiəçilər" serialında epizodik rolda çəkilib.

- "Arsenal"ın hücumçusu Aleksandr Lyakazett "Lion"la 2025-ci ilin yayına qədər müqavilə imzalayıb.

- İngiltərə "Arsenal"ının futbolçusu Tomas Partey mərakeşli Sara Bella ilə evləndikdən sonra özünə Yakubu adını götürüb.

- "Real"ın yarımmüdafiəçisi Dani Sebalyos yay transfer pəncərəsi zamanı klubu tərk edəcək.

- Bu yay klubu tərk edəcəyi gözlənilən "Mançester Siti"nin yarımmüdafiəçisi İlkay Gündoğanla "Barselona" və "Yuventus" maraqlanır.

- 50 yaşlı mütəxəssis Frank Kramer bir illik fasilədən sonra Almaniya Bundesliqasına vəsiqə qazanan "Şalke"nin yeni baş məşqçisi olub.

## 59 topdan 41-i avtoqol oldu

Cənubi Afrikada 2-ci liqaya yüksəlmək üçün mübarizə aparan "Matiyasi" komandası "Nsami Mighty Birds"lə oyunda 59:1 hesabı ilə qələbə qazanıb. Amma təəccübə səbəb olan təkcə bu heyrətamiz hesabın qeydə alınması olmayıb. Məsələ burasındadır ki, bu 59 qoldan 41-ni rəqib futbolçular öz qapılarına vurublar.

3-cü yerdə olan "Matiyasi"nin üst liqaya vəsiqə qazanması üçün ondan 18 top fərqi ilə qalib gəlməsi tələb olunub. Amma onlar rəqibi 58 top fərqi ilə məğlubiyyətə uğradıblar. Oyundan sonra yerli futbol federasiyası araşdırma apararaq hər iki komandanın matçın nəticəsini əvvəlcədən razılaşdırdığı qənaətinə gəlib və bu klubları ömürlük bütün yarışlardan kənarlaşdırıb.

Lakin liqada danışılmış oyun təkcə bu oyunla bitməyib. "Matiyasi" ilə eyni xala malik, amma daha az qol fərqi olan digər komanda "Shivulani Dangerous Tigers" isə "Kototo Happy Boys"la görüşdə 33:1 hesabı ilə qələbə qazanıb. Bu oyunda isə rəqibin futbolçuları 7 dəfə avtoqol müəllifi olublar. Görüşdən sonra bu matçın da danışılmış olduğu ortaya çıxıb. Federasiyanın qərarı ilə bu iki klub da futboldan ömürlük uzaqlaşdırılıb.

## Premyer Liqa azarkeşlərini yeni qadağalar gözləyir

İngiltərə Premyer Liqası illik ümumi yığıncağında azarkeşlər üçün davranış qaydalarını sərtləşdirib.

Belə ki, gələn mövsümdən etibarən qonaq komandaların azarkeşlərini stüardlar müşayiət edəcək. Meydançaya çıxan azarkeşlərə təkcə öz klubunun deyil, hər hansı digər komandanın matçlarına gəlməyə ömürlük qadağa qoyulacaq.

Bu qərar Premyer Liqanın ötən mövsümünün sonlarında oxşar hadisələrin daha tez-tez baş verməsi fonunda verilib.

Premyer Liqanın rəhbəri Riçard Masters isə yeni qərarı belə şərh edib: "Azarkeşlər yadda saxlamalıdırlar ki, istənilən vaxt meydançaya qaçmaq qanunsuzdur. Meydan yalnız futbol oynamaq üçün nəzərdə tutulub. Oyunçular, məşqçilər, hakimlər və işçilər öz təhlükəsizliklərindən qorxmamalıdırlar".

# “Şuşa İli”nə həsr olunmuş birincilik keçirilib

Uşaq, yeniyetmə və gənclər arasında 6 saylı İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbində “Şuşa İli”nə həsr olunmuş “Təhsil” Respublika İdman Mərkəzinin karate idman növü üzrə respublika birinciliyi keçirilib.

Beynəlxalq Karate Federasiyasının qaydaları əsasında 10-11, 12-13, 14-15, 16-17 yaşlı oğlan və qızlar arasında təşkil olunan yarışa Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən uşaq-gənclər idman-şahmat məktəbindən 6 komanda olmaqla 156 nəfər idmançı iştirak edib.



Yarışın nəticələrinə əsasən, ümumi hesabda 6 saylı İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbi birinci yeri tutub. İkinci pillədə 9 saylı Uşaq-Gənclər İdman Məktəbinin yığması qərarlaşıb. Üçüncü yerə isə Sumqayıt şəhər 2 saylı Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin karateçiləri layiq görülüblər.

Qalib və mükafatçılar “Təhsil” Respublika İdman Mərkəzi tərəfindən diplom və medal, komandalar kubokla təltif olunub.

Qeyd edək ki, yarışın keçirilməsində məqsəd idmançılar arasında vətənpərvərlik hissinin aşılanması, karate idman növünün təbliği və inkişaf etdirilməsi, idmançılar arasında dostluq əlaqələrinin genişləndirilməsi, uşaq, yeniyetmə və gənclər arasında yarış təcrübəsinin artırılması, qeyd olunan yaş qrupları üzrə mərkəzin oğlan və qızlardan ibarət yığma komandasının formalaşdırılmasından ibarət olub.

# Mini futbol üzrə Azərbaycan millisi tarixində ilk dəfə Avropa çempionu tituluna yiyələndi



(əvvəli 1-ci səhifədə)

Komandamızın qolkiperi Davud Kərimi mini futbol üzrə Avropanın ən yaxşı qapıçısı, Bəxtiyar Soltanov isə qitə çempionatının ən yaxşı oyunçusu seçilib.

Xatırladaq ki, Avropa çempionu adını qazanan komandamızın heyətində Anar Məmmədov, Tanrıverdi Məhərrəmli, Tural Nərimanov, Vitali Borisov, Seymur Məmmədov, Asif Zeynalov, Elvin Əlizadə, Samir Həmzəyev, Vüsal İsayev, Taleh Babayev, Mirmehdi Rzayev, Ramil Həsənzadə, Orxan Əliyev, İlkin Hacıyev, Təmraz Əmircanov, Rəvan Kərimov, Bəxtiyar Soltanov, Mehdi Rəsulov, Davud Kərimi və Elmar Qasımov yer alıblar.

Qeyd edək ki, Azərbaycan millisi 24 komandanın yarışdığı Avropa çempionatında mübarizəyə B qrupunda başlayıb. Komandamız qrupda da rəqib olan Rumıniyaya uduzsa da (0:2), İspaniya (5:1) və Albaniyaya (1:0) qalib gələrək səkkizdəbir finala yüksəlib. Azərbaycan millisi səkkizdəbir finalda İsraili 3:0, dörddəbir finalda isə ev sahibi Slovakiyanı minimal hesabla məğlub edərək yarımfinala yüksəlib. Yarımfinalda Qazaxıstan yığması üzərində əzmkar qələbə (3:2) qazanan futbolçularımız finalda oynamaq hüququ əldə ediblər.

Qeyd edək ki, komandamız iyunun 13-də Vətənə qayıdıb. Yığmamız Heydər Əliyev Beynəlxalq Aeroportunda böyük coşqu ilə qarşılanıb.

Qarşılanma mərasimində ölkəmizin idman ictimaiyyətinin nümayəndələri, federasiya rəsmiləri, futbolçuların yaxınları və jurnalistlər iştirak ediblər.




# Badmintonçularımız Litvada beynəlxalq turnirdə iştirak ediblər



Badmintonçularımız Litvanın Panevejis şəhərində keçirilən “Future” seriyalı “RSL Lithuanian International 2022” turnirində çıxış ediblər. Kişi badmintonçuların şəxsi yarışında idmançımız Diki Dvi Pangestu təsnifat mərhələsinin sonuncu görüşündə indoneziyalı Alden Lefilsona 2:1 hesabı ilə qalib gələrək əsas mərhələyə yüksəlib.

Əsas mərhələdə keçirdiyi ilk görüşdə Malayziya badmintonçusu Teh Zi Yini 2:0 hesabı ilə məğlub edən badmintonçumuz turnirin səkkizdəbir finalına adlayıb. Diki dörddəbir finala yüksəlmək uğrunda keçirilən görüşdə danimarkalı Kristofer Vittorianiyə 1:2 hesabı ilə uduzub.

Təsnifat mərhələsində ardıcıl olaraq iki qələbə qazanan Məhəmməd Khadafi isə əsas mərhələyə yüksəlmək uğrunda keçirilən görüşdə isveçli Yohan Azeliusa 1:2 hesabı ilə məğlub olub.

Kişi badmintonçuların qoşa yarışında Aqil Qəbilov-Diki Dvi Pangetsu cütlüyü onaltıdabir finalda Malayziya təmsilçiləri Məhəmməd Faris-Jia Çenq tandeminə 0:2 hesabı ilə uduzub.

Cahid Əlhəsənov-Məhəmməd Khadafi qoşa cütlüyü isə estoniyalı Karl Kert-Mihkel Talts tandeminə 1:2 hesabı ilə məğlub olub.

## *Paraüzgüçümüz dünya çempionatında gümüş medala sahib çıxdı*

Paraüzgüçülük üzrə Azərbaycan yığmasının üzvü Roman Saley Portuqaliyanın Madeyra şəhərində keçirilən dünya çempionatında gümüş medal qazanıb. 28 yaşlı idmançı 100 metr məsafəyə arxasıüstə üzgüçülük yarışında 1 dəqiqəlik nəticə göstərərək finişə ikinci çatıb.

Xatırladaq ki, R.Saley Tokio-2020 Yay Paralimpiya Oyunlarının üçqat qalibidir.

## Yeniyetmə basketbolçular “Catch The Stars” turnirində yarışıblar

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının idman zalında 2010-2011-ci illər təvəllüdlü oğlan və qızlar arasında basketbol üzrə “Catch The Stars” turniri keçirilib.

Klublar arasında keçirilən oğlanların yarışında “Alov Basket” komandası qalib olub. Qızların turnirində isə ən yüksək nəticəni BBA komandası göstərib.

## Yığmamız “Dalğa Arena”da

UEFA Millətlər Liqasında Azərbaycan yığmasının Qazaxıstanla qarşılaşacağı stadion müəyyənləşib. Görüş sentyabrın 25-də “Dalğa Arena”da keçiriləcək. Oyun saat 20:00-da başlanacaq. Xatırladaq ki, millimiz bu rəqibi ilə səfərdə keçirilən ilk görüşdə 0:2 hesabı ilə uduzub.

## Futbolçumuz Türkiyədən qayıdır

Millimizin üzvü Namik Ələskərov “Bursaspor”dan rəsmən ayrılıb.

27 yaşlı yarımmüdafiəçinin Bursa təmsilçisindən ayrılması artıq Türkiyə Futbol Federasiyası tərəfindən qeydə alınıb.

Xatırladaq ki, N.Ələskərov ötən ilin yayında “Bursaspor”a transfer olunmuşdu. Komanda 2021/2022 mövsümünü Türkiyə 1-ci liqasında 17-ci pillədə başa vurub və 2-ci liqaya düşmüşdü. Reqlamentə əsasən, Türkiyə 2-ci liqasında legioner futbolçu oynaya bilməz. Bu səbəbdən klub legionerlərlə yolları ayıracağını açıqlamışdı.

## Klublarımızın avrokubok sınağı başlayır

UEFA Millətlər Liqasının oyunları baş çatdıqdan sonra futbolsevərləri avrokubokların təsnifat mərhələsinin oyunları gözləyir. Püşkatma mərasimindən sonra UEFA Çempionlar Liqası və Konfrans Liqasında ilk raundların cütləri bəlli olacaq.

Amma təsnifat mərhələlərinin ilk püşkü iyunun 14-də atılacaq.

Qitənin ən nüfuzlu klub turnirində 29 komanda və ilkin mərhələnin qalibi, iştirak edəcək.

Azərbaycan çempionu “Qarabağ”ın da ilk rəqibi iyunun 14-də müəyyənləşəcək. Azərbaycan çempionu səpələnmişlər sırasındadır.

Ağdam klubu digər səbətdəki 15 variantdan 14-nü gözləyir. Ermənistan klubları təmsilçilərimizə rəqib ola bilməz.

“Qarabağ”ın növbəti mümkün rəqibi iyunun 15-də bilinəcək. Ağdam klubunun yer aldığı cütün qalibinin kiminlə görüşə biləcəyi müəyyənləşib. Burada 10 mümkün variantdan 8-i ilk raundun cütlərinin qalibidir. “Sürix”lə “Makkabi” isə yarışın ilk raundundan azad olan mümkün rəqiblərdir.

İlk mərhələdən azad olan Konfrans Liqasındakı təmsilçilərimiz “Neftçi”, “Zirə” və “Qəbələ” iyunun 15-ni gözləyəcək.

II təsnifat mərhələsində 60 klub bir-birinə rəqib olacaq. “Neftçi” səpələnmişlər sırasında yer alacaq. “Zirə” ilə “Qəbələ” isə aşağı reytinqlilər sırasında olduğundan onları nisbətən güclü rəqib gözləyir.

## Qrossmeysterimiz “Norway Chess” turnirində ikinci yeri tutdu



Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov Norveçin Stavanger şəhərində keçirilən ənənəvi “Norway Chess” şahmat superturnirində ikinci yeri tutub. Son raundda - 9-cu turda Ş.Məmmədyarov Teymur Rəcəbova məğlub olub. Ötən turların yekununa görə, Şəhriyar Məmmədyarov 15,5 xal toplayıb. Teymur Rəcəbov isə 8 xalla 9-cu nəticəni göstərib.

Yarışın qalibi 16,5 xalla hazırkı dünya çempionu, norveçli Maqnus Karlsen olub.

## Xüsusi olimpiyaçılarımız beynəlxalq turnirin qalibi oldular



Azərbaycan Xüsusi Olimpiya Komitəsinin oğlanlardan ibarət futbol komandası Estoniyanın Vilyandi şəhərində keçirilən beynəlxalq futbol turnirinin qalibi olub. Turnirin ikinci günündə qrup oyunlarında Belçikanı 4:0 və Macarıstanı 3:1 hesabı ilə məğlub edən komandamız divizionda birinci yerə çıxıb. Komandamız bu nəticə ilə finala vəsiqə qazanıb. Final mərhələsində Litva yığması ilə qarşılaşan xüsusi olimpiyaçılarımız 3:0 hesablı qələbə qazanaraq çempion adına layiq görülüblər.

* * *

Azərbaycan Xüsusi Olimpiya Komitəsinin təşkilatçılığı ilə Şağan Olimpiya İdman Kompleksində oğlanlar arasında basketbol üzrə seçmə yarış keçirilib. Yarış xüsusi Olimpiya proqramına uyğun olaraq 2 divizionda təşkil edilib. Yekun nəticəyə görə, ən güclü divizionda Xəzər rayonu Sağlamlıq imkanları məhdud valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 4 nömrəli xüsusi tipli internat məktəbi birinci yerə layiq görülüb. Sumqayıt şəhər inteqrasiya təlimli internat tipli gimnaziya ikinci, Xəzər rayonu E. Mirzəyev adına sağlamlıq imkanları məhdud uşaqlar üçün 6 saylı xüsusi internat məktəbi üçüncü pillədə qərarlaşıblar.

Qeyd edək ki, yığma ən güclü divizionda qalib gələn komandanın bazasında komplektləşdiriləcək və 2023-cü ilin beynəlxalq yarışlarında iştirak etmək şansı qazanacaq.

# Dünya idmanı



## Həftəlik idman qoroskopu

### Qoç

Qoç bürcü altında doğulan idmançılar üçün bu həftə çox uğurlu keçəcək. Onlar bu həftə yarışa inamla qatılacaqlar. Qoçların qalib gəlmək üçün böyük şansları var.

### Buğa

Buğanın gücü ona bütün idman növlərində özünü sınamağa kömək edəcək. Bu bürc altında doğulanlar bu həftə hətta xeyli güc toplaya bilərlər. Amma həddini aşmamaq şərti ilə. Bir az sağlamlığınıza da fikir verin.



### Əkizlər

Bu həftə əkizlərin idman həyatı o qədər də uğurlu olmayacaq. Ulduzlar sizə hələlik idmandan bir qədər kənar gəzməyi məsləhət görür. Təbiətin qoynunda istirahət etsəniz daha yaxşı olar.

### Xərçəng

Xərçənglər idman alətləri ilə bir az ehtiyatlı olsalar yaxşıdır. Məsələn, ağırlıq daşlarından istifadə zamanı bunu nəzərə alın. Əks halda özünüzü zədələyə və həkimə müraciət etməli olarsınız.

### Şir

Ulduzlar şirlərə bu həftə ancaq istirahət etməyi məsləhət görürlər. Əgər onlar idmansız qala bilmirlərsə, onda evdə özlərinə məşq etmək üçün şərait yaratsınlar.

### Qız

Bu həftə qızlar üçün pis keçməyəcək. İdmanla mütəmadi məşğul olun. Siz idmana çox bağlısınız. Amma əsəbiləşəndə məşqlərinizə ara verirsiniz. Bu isə sizə zərər gətirə bilər.

### Tərəzi

Tərəzi bürcündə doğulanların gün ərzində səmərəli məşq etməsi üçün ən əlverişli həftədir. Məşqlər zamanı özünüzü çox yüngül və gümrah hiss edəcəksiniz.

### Əqrəb

Əqrəblər gözləməyi və öz istədiklərinə nail olmağı bacarırlar. Onlar həmişə yarışlardan qalib çıxırlar. Bu həftə də uğurlarla yadda qalacaq.

### Oxatan

Oxatanlar həyatda diribaş və hərəkətli olduqları kimi idmanda da çox cəld və dinamikdirlər. Ona görə də onlar həmişə formada qalırlar. Bu həftə onlara at çapmaq və ya velosiped sürmək məsləhət görülür.

### Oğlaq

Bu həftə oğlaqlara səhər qaçışı məsləhət görülür. Bunu dəniz kənarında etsəniz, həm də havanızı dəyişmiş olarsınız. Gününüzü idman barədə kitablar oxumaqla da keçirə bilərsiniz.

### Dolça

Dolça bürcü altında anadan olan idmançılar bu həftə səyahətə çıxa bilərlər. Artıq sizin də idmandan kənar gəzə biləcəyiniz vaxt gəlib çatdı. Amma geyiminizə diqqət edin. Əks halda xəstələnə bilərsiniz.

### Balıqlar

Balıqlar idmanla məşğul olmağa səhər tezdən başlasalar, daha yaxşı olar. Onlar üçün həftə harada məşq edəcəkləri də vacibdir.



### Üfüqi

2. Azərbaycan….Federasiyası. 5. Dünyada kinomatoqrafların ən çox çox müraciət etdiyi idman növü. 6. II Avropa Oyunlarına ev sahibliyi etmiş şəhər. 7. Hokkey və futbolda ən çox qol vuran hücumçu belə adlanır. 8. Amerika və Kanada futbolunda işlədilən termin, "topun itirilməsi". 10. "Lill"də oynayan türkiyəli futbolçu…Yazıcı. 11. Hərbi rütbə, komandada rəhbər. 15. Mərhələ. 16. Tennis meydançası. 17. Dağ xizəyində sürüşmə üslubu. 19. Stolüstü tennisin əvvəlki adı.

### Şaquli

1. Finlandiya futbolunun əfsanəsi. 3. V İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəcək şəhər. 4. 360 dərəcəlik akrobatik tullanış, Uruqvayda şəhər. 9. İtaliya çempionatında yüksək nəticə, çempionluq. 12. "Bayer…".13. Küçə basketbolu. 14. Skeytbordinq və snoubord yarışlarında icra olunan hərəkət. 15. İtaliyanın şimalında yerləşən mədəniyyət şəhəri. 18. Əlcəzair futbol liqasında çıxış edən klub. 20. Kanadada şəhər, çay və hokkey komandası.

olimpnews.az - sizin saytınız




"Olimpiya dünyası" qəzetinin kollektivi Bakı Dövlət Universitetinin Beynəlxalq jurnalistika kafedrasının professoru

**Nəsir Əhmədlinin**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

Respublika Yüksək İdman Ustalığı Məktəbinin kollektivi Futbol üzrə İxtisaslaşdırılmış Uşaq-Gənclər Olimpiya Ehtiyatı Məktəbinin məşqçi-müəllimi

**Eldar Çingiz oğlu Bədəlovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

Futbol üzrə İxtisaslaşdırılmış Uşaq-Gənclər Olimpiya Ehtiyatı Məktəbinin direktoru Kazbek Tuayev və kollektivi iş yoldaşları

**Eldar Çingiz oğlu Bədəlovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi Futbol üzrə İxtisaslaşdırılmış Uşaq-Gənclər Olimpiya Ehtiyatı Məktəbinin məşqçi-müəllimi

**Eldar Çingiz oğlu Bədəlovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19